**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TURANƏ VAHİD QIZI ƏHMƏDOVA**

# İSTEHSAL VASİTƏLƏRİ BAZARININ İNFRASTRUKTURUNUN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ VƏ İNKİŞAF PROBLEMLƏRİ

5308.01 – "Ümumi iqtisadiyyat"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Marketinq" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbəri:** **Telman İman oğlu İmanov**
iqtisad elmləri doktoru, dosent

**Rəsmi opponentlər:** **Əli Qənbərəli oğlu Əlirzayev**
Azərbaycan Respublikasının Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor

**Aqil Məhiyyədin oğlu Əsədov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

Dissertasiyanın müdafiəsi 29 iyun 2016-ci il tarixində saat 14-də Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdindəki D02.051. dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universitetinin dissertasiya şurası

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 28 may 2016-ci il tarixində göndərilmişdir.

D02.051. dissertasiya şurasının
elmi katibi, i.e.n., dosent: **M.M.Sadıqov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycan dövlət müstəqilliyinin təmin edilməsi, bazar münasibətlərinin dərinləşməsi sahəsində aparılan iqtisadi islahatlar ölkə iqtisadiyyatının inkişafı və dünya təsərrüfatı sisteminə daha sıx inteqrasiya olunması üçün əlverişli şərait yaratmışdır. Məhz belə bir şəraitdə milli iqtisadiyyatın formalaşması və ölkənin dünya bazarında yerinin müəyyən edilməsi, onun mövqeyinin perspektiv dövr üçün möhkəmləndirilməsi dövlətin siyasi-iqtisadi fəaliyyətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir.

İqtisadi sistemin səmərəli fəaliyyəti onun bilavasitə maddi, maliyyə, əmək və digər resurslarla təminat səviyyəsindən asılıdır. Böyük həcmdə müxtəlif resursların bir yerdə konsentrasiyası infrastruktur adlanan xüsusi sistemin köməkliyi ilə həyata keçirilir. Təbii ki, bütövlükdə bazarın effektiv fəaliyyət göstərməsi, təsərrüfat subyektləri arasında qurulan iqtisadi münasibətlərin etibarlılığı, əmtəə və maliyyə resurslarının dövriyyə sürətinin artırılması və tədavül xərclərinin səviyyəsinin aşağı salınması müasir iqtisadi şəraitin tələblərinə cavab verən infrastrukturun yaradılması və inkişafından asılıdır.

Bu baxımdan respublika iqtisadiyyatında bazar təsərrüfatçılığı prinsiplərinin bərqərar olması üçün həyata keçirilən sosial-iqtisali islahatlar çərçivəsində iqtisadiyyatın infrastruktur təminatı problemi və bazar münasibətləri sisteminin formalaşmasında infrastrukturun rolunun artması kimi məsələlərin araşdırılması mühüm aktuallıq kəsb edir. Bu, hər şeydən əvvəl bazarın hərəkətverici kompanenti hesab edilən infrastrukturun funksiyalarının genişləndiyi və mürəkkəb xarakter aldığı müasir iqtisadi şəraitdə ölkə iqtisadiyyatının inkişafını ləngidən, əlverişli biznes mühitinin formalaşması prosesinə mane olan zəif inkişaf etmiş infrastruktur təminatının mövcudluğu və nəticə etibarı ilə perspektiv dövr üçün iqtisadi artıma nail olunmasının bu və ya digər formada çətinləşməsi ilə əlaqələndirilir.

Bütövlükdə bazar infrastrukturunun, o cümlədən istehsal vasitələri bazarının infrastrukturunun intensiv inkişaf etdirilməsi və təkmilləşdirilməsi mühüm problem olmaqla ölkə iqtisadiyyatının müasir bazar iqtisadi münasibətləri sisteminin tələbləri səviyyəsində qurulmasına xidmət göstərir. Təbii ki, mövcud problemin müvəffəq həlli ölkə iqtisadiyyatının sabit və dayanıqlı inkişafına zəmanət verməklə istehsal və kommersiya strukturlarının səmərəli fəaliyyəti üçün əlverişli imkanlar yarada, təsərrüfat subyektlərinin daxili və xarici iqtisadi əlaqələr sisteminin strukturunu yaxşılaşdıra bilər.

***Problemin öyrənilməsi səviyyəsi.*** Bazar infrastrukturunun nəzəri və metodoloji baxımdan tədqiqi sahəsində əsas fikir yaradıcıları R.Yoximsen, R.Nurkse, P.Rozenşteyn-Rodan, P.Samuelson, A.Yanqsona,Y.Şumpetera hesab olunsalar da, bütövlükdə bazar infrastrukturu, eləcə də onu təşkil edən

ayrı-ayrı elementlərin formalaşması və fəaliyyəti ilə əlaqədar müxtəlif aspektlər xarici ölkə alimlərindən T.Q.Semenkov, V.P.Krasovski, V.A.Jamin, V.N.Xomelyanski, Y.A.Jaravin, E.Q.Russkov, İ.F.Çernyavski, N.Q.Qluşiç, A.İ. Koçerqa, A.A.Mazaraki, S.İ.Xvatova, A.T.Toşenko (*infrastrukturun nəzəri mahiyyəti*); R.Yoximsen, A.A.Auzan, A.İ.Kuznetsov, M.N.Yudenko (*institusional infrastrukturun iqtisadi mahiyyəti*); L.İ.Abalkin, A.A.Belyayev, E.M.Korotkov, V.N.Burkov, N.A.Korqin, D.A.Novikov, V.V.Kondratev, A.Kulman, L.Ş.Lozovski, E.B.Starodubçev, V.O.Fedoroviç, A.V.Novikov, T.A.Şilov (*infrastrukturun idarəedilməsinin təşkilati-iqtisadi mexanizminin nəzəri əsasları*) və digərlərinin apardıqları elmi araşdırmalarda öz əksini tapmışdır.

Əmtəə bazarının infrastrukturunun makroiqtisadi təhlili və bazar amillərinə əsaslanan tədqiqi respublikanın iqtisadçı alimlərindən A.M.Əsədov, A.H.Səmədov, Ə.Q.Əlirzayev, F.P.Rəhmanov, İ.Ə.Mirzəyev, Q.N.Manafov, M.A.Əhmədov, R.M.Cəbiyev, T.İ.İmanov, T.C.Vəliyev, Ü.Q.Əliyev və başqaları sözügedən bazarın infrastruktur tədqiqi sahəsində elmi-praktiki baxımdan böyük əhəmiyyət daşıyan nəticələr əldə etmiş və bu bazarın infrastrukturunun inkişafı ilə bağlı bir sıra əsaslı təkliflər irəli sürmüşlər.

İstər ölkəmizdə, istərsə də onun hüdudlarından kənarda bazar təsərrüfatının, bazarın infrastruktur təminatı ilə bağlı çoxsaylı elmi tədqiqat işləri yerinə yetirilsə də ümumbazar sisteminin tərkib hissəsi kimi istehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafı problemləri ilə bağlı aparılan elmi araşdırmaların səviyyəsi kifayət qədər deyildir.

Bu sahədə aparılan tədqiqatları yüksək dəyərləndirərək qeyd etmək lazımdır ki, istehsal vasitələri bazarının infrastruktur tədqiqi sahəsində hələ ki, həll edilməmiş çoxsaylı problemlər qalmaqdadır. Belə problemlər sırasına sözügedən bazarın infrastrukturunun formalaşması qanunauyğunluqları və xüsusiyyətlərini, bazar iqtisadi sisteminin tələbləri baxımından bu bazarın infrastrukturunu təşkil edən elementlər arasında qarşılıqlı təsirlərin xarakterini, infrastruktur təminatının iqtisadi səmərəliliyinin qiymətləndirilməsi üçün metodiki aparatın işlənib hazırlanmasını və s. aid etmək olar.

Beləliklə, problemin respublikamızda kifayət qədər öyrənilməməsi, onun mühüm elmi və praktik əhəmiyyət daşıması seçilmiş mövzunun aktuallığını müəyyənləşdirir.

***Tədqiqatın məqsədi və vəzifələri.*** Tədqiqatın məqsədi ölkəmizdə istehsal vasitələri bazarının formalaşması xüsusiyyətlərini nəzərə almaqla makroiqtisadi səviyyədə istehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafının nəzəri-metodoloji məsələlərini araşdırmaq, bu sahədə elmi işləmələrin təhlili və mövcud təsərrüfatçılıq təcrübəsinin kompleks tədqiqi əsasında konkret təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Mövcud məqsədə uyğun olaraq tədqiqat işində aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- nəzəri və metodiki baxımdan "infrastruktur" anlayışına həm iqtisadi kateqoriya, həm də iqtisadi sistem kimi yanaşmaları elmi cəhətdən əsaslandırmaq;
- iqtisadi münasibətlər sistemində infrastrukturun yerini müəyyənləşdirmək;
- istehsal vasitələri bazarına məhsulyeridilişi ilə bağlı kompleks xidmət göstərən infrastrukturun tərkib elementləri və yerinə yetirdiyi funksiyaları aşkar etmək;
- sistemli yanaşma və təkamül baxımından istehsal vasitələri bazarının infrastruktur kompleksinin formalaşması qanunauyğunluqları, xüsusiyyətləri və istiqamətlərini müəyyənləşdirmək;
- istehsal vasitələri bazarının infrastruktur təminatının kompleks təhlili əsasında onun müasir vəziyyətini qiymətləndirmək;
- istehsal vasitələri bazarının infrastrukturunun inkişaf etdirilməsi üzrə təşkilati-iqtisadi mexanizmi işləyib hazırlamaq;
- istehsal vasitələri bazarının infrastruktur təminatının iqtisadi səmərəliliyini müəyyənləşdirmək;
- istehsal vasitələri bazarının infrastrukturunun inkişaf meyllərini aşkar etmək.

***Tədqiqatın predmetini*** bazar münasibətləri sisteminin müasir inkişaf ənənələrini nəzərə almaqla istehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafı prosesində meydana çıxan iqtisadi münasibətlər təşkil edir.

***Tədqiqatın obyektini*** müasir iqtisadi şəraitində istehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafı ilə bağlı iqtisadi proseslər təşkil edir.

***Tədqiqat işinin nəzəri və metodoloji*** əsasını istehsal vasitələri bazarının sivil infrastrukturunun formalaşması və inkişafı sahəsində dünyanın və ölkəmizin aparıcı alimlərinin son illərdə apardıqları fundamental və tətbiqi xarakterli tədqiqatların əsas müddəaları və nəticələri, Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair qanun və Dövlət Proqramları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin və Nazirlər Kabinetinin qərarları, normativ hüquqi sənədlər təşkil edir.

Dissetasiya işində qarşıya qoyulan məsələlərin həlli zamanı müasir iqtisad məktəblərinin malik olduğu geniş nəzəri təcrübə və metodoloji əsaslardan istifadəyə üstünlük verilməklə təqiqat işi sistemli və müqayisəli təhlil prinsipi üzərində qurulmuş, statistik, qrafik və qruplaşdırma metodlarından,

eləcə də ekspert qiymətləndirmələrindən, ümumi sistem və strateji idarəetmə nəzəriyyəsindən istifadə olunmuşdur.

Son dövrlərdə Azərbaycan Respublikasında istehsal vasitələri bazarının infrastrukturunun mövcud vəziyyəti və inkişaf qanunauyğunluqlarını əks etdirən geniş statistik materialların təhlilinə xüsusi diqqət yönəldilmişdir.

***Tədqiqatın informasiya bazasını*** Azərbaycan Milli Məclisinin qəbul etdiyi normativ-hüquqi sənədlər Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi materialları, Respublikanın İqtisadi İnkişaf, Maliyyə, Nəqliyyat, Ekologiya və Təbii Sərvətlər Nazirliklərinin,"Azərkontrakt" ASC-nin statistik və hesabat materialları, regionların sosial-iqtisadi inkişaf strategiyası, monoqrafiya və dissertasiya işləri, elmi ədəbiyyatlarda çap edilmiş statistik materiallar, xarici və ölkə alimlərinin nəşr edilmiş məqalələri, İnternet saytları və sair məlumatlar təşkil edir.

***Tədqiqat işinin elmi yeniliyi.*** Tədqiqat işinin elmi yeniliyi müasir sosial-iqtisadi şəraitdə istehsal vasitələri bazarının infrastrukturunun perspektiv inkişaf istiqamətlərinin qiymətləndirilməsindən ibarətdir. Tədqiqat işinin elmi yeniliyini müəyyənləşdirən əsas nəticələrə və müdafiənin predmetini təşkil edən müddəalara aşağıdakılar aid edilir:

- sosial-iqtisadi sistemin mühüm elementi kimi maddi istehsalla qeyri-maddi istehsal sferası arasında üzvü əlaqə yaradan "infrastruktur" anlayışına nəzəri və metodiki baxışların təhlili əsasında bu anlayışın iqtisadi kateqoriya və sistem kimi təbiəti müəyyənləşdirilmişdir;
- bazar infrastrukturunun mahiyyətinin müəyyənləşdirilməsinə sistemli yanaşma əsasında sabit iqtisadi münasibətlərin təkrar istehsalını təmin edən, müxtəlif bazarların effektiv və dinamik fəaliyyətinə şərait yaradan institut, texnologiya, norma məcmusi kimi "bazar infrastrukturu" anlayışı formalaşdırılmışdır;
- istehsal vasitələri bazarına xidmət göstərən bazar infrastrukturunun sosial-iqtisadi münasibətlər sistemində yeri və rolu müəyyənləşdirilmişdir;
- infrastrukturun mühüm xüsusiyyətləri və yerinə yetirdiyi funksiyalar nəzərə alınmaqla bazar infrastrukturu obyektləri qruplaşdırılaraq elementlər üzrə təsnifatı verilmişdir;
- məntiqi yanaşma əsasında ölkə iqtisadiyyatının inkişaf mərhələlərinə uyğun olaraq istehsal vasitələri bazarının infrastrukturunun formalaşması xüsusiyyətləri və inkişaf mərhələləri aşkar edilmişdir;
- geniş statistik materialların tədqiqi əsasında istehsal vasitələri bazarının infrastrukturunun formalaşması ilə bağlı real iqtisadi nəticələr təhlil olunmuş və mövcud inkişaf problemləri aşkar edilmişdir;
- müasir iqtisadi şəraitdə istehsal vasitələri bazarının infrastrukturunun inkişaf etdirilməsi üzrə təşkilati-iqtisadi mexanizm işlənib hazırlanmışdır;

- infrastruktur kompleksinin səmərəli idarəetmə mexanizmini formalaşdırmaq məqsədi ilə istehsal vasitələri bazarının infrastrukturunun konseptual inkişaf istiqamətləri təklif edilmişdir.

***Tədqiqatın nəzəri və praktik əhəmiyyəti*** makroiqtisadi səviyyədə istehsal vasitələri bazarının iqtisadi cəhətdən səmərəli fəaliyyətinə şərait yaratmaq üçün sözügedən bazarda məhsulyeridilişin optimal təşkili, istehsal vasitələri bazarının subyektlərinin maddi-texniki təminatı və məhsul satışı proseslərinin yaxşılaşdırılması və istehsal vasitələri bazarının infrastrukturunun inkişafı və onun idarəetmə sisteminin təkmilləşdirilməsi ilə əlaqədar müxtəlif səpkili təklif və tövsiyələrin verilməsindən ibarətdir. Dissertasiyanın materiallarından: a) "Əmtəə bazarının infrastrukturunun inkişaf etdirilməsi üzrə kompleks Dövlət Proqramının" işlənib hazırlanmasında; b) idarəetmə strukturlarının işinin planlaşdırılmasında; v) respublikanın ali tədris müəssisələrində "Əmtəə bazarının proqnozlaşdırılması", "Bazar infrastrukturu", "Logistika" və "Marketinq" kimi fənlərinin tədrisində, eləcə də rəhbər kadr və mütəxəssislərin yenidən hazırlanması kurslarında istifadə oluna bilər.

***Tədqiqat işinin aprobasiyası və nəticələrin tətbiqi.*** Dissertasiya işinin əsas nəzəri müddəaları və tədqiqat işindən irəli gələn əməli təkliflər Beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmişdir.

Dissertasiya işində əldə edilmiş əməli təkliflər Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən tətbiq edilmişdir. Arayış № ASC12-3306, 28 dekabr 2015.

***Tədqiqatın nəticələrinin çap edilməsi.*** Dissertasiya işinin məzmunu və nətiəcələri ümumi həcmi 20 jurnal məqaləsi, müxtəlif Beynəlxalq və Respublika elmi-praktiki konfransların materiallarında çap edilmiş tezislərdə öz əksini tapmışdır.

***Tədqiqat işinin quruluşu və həcmi.*** İstehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafı ilə bağlı öz həllini tələb edən başlıca problemlərin aşkar edilməsi tədqiqat işinin mövcud strukturunu müəyyənləşdirmişdir. Tədqiqat işi giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir. Dissertasiya işinin ümumi həcmi 187 səhifə, 23 cədvəl, 15 şəkil, 9 əlavədən ibarətdir. Tədqiqat işində 198 adda ədəbiyyatdan istifadə olunmuşdur.

# DİSSERTASİYA İŞİNİN STRUKTURU

**Giriş**
**I FƏSİL. Bazar münasibətləri sistemində iqtisadiyyatın infrastruktur tədqiqinin nəzəri-metodoloji əsasları**
1.1. İnfrastruktur bazar iqtisadiyyatının mühüm elementi kimi
1.2.İstehsal vasitələri bazarında məhsulyeridilişinin təmin edilməsinə xidmət göstərən infrastruktur sahələrinin yeri və rolu
1.3.İstehsal vasitələri bazarının infrastruktur kompleksinin formalaşmasının logistik xüsusiyyətləri
**II FƏSİL. Azərbaycan Respublikasında istehsal vasitələri bazarının infrastruktur təminatı və inkişaf meyllərinin tədqiqi**
2.1.İstehsal vasitələri bazarının infrastruktur təminatını xarakterizə edən göstəricilər sistemində anbar təsərrüfatı və onun tədqiqi
2.2.Logistik baxımdan istehsal vasitələri bazarının nəqliyyat təminatının mövcud vəziyyətinin təhlili
2.3.İstehsal vasitələri bazarının infrastruktur kompleksində topdansatış ticarətinin rolunun qiymətləndirilməsi
**III FƏSİL.İstehsal vasitələri bazarının infrastrukturunun inkişafının təşkilati-iqtisadi mexanizmi**
3.1.İstehsal vasitələri bazarının infrastruktur təminatının iqtisadi səmərəliliyinin müəyyənləşdirilməsi
3.2.Logistik monitorinq əsasında istehsal vasitələri bazarının infrastrukturunun dövlət tənzimlənməsi meylləri
3.3.Ölkədə istehsal vasitələri bazarının infrastrukturunun inkişaf perspektivləri
**Nəticə və təkliflər**
**İstifadə edilmiş ədəbiyyat**
**Əlavələr**

# DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

***Təqdim olunan dissertasiya işinin məzmunu və nəticələri aşağıdakı ən mühüm və ümumiləşdirilmiş müddəalarda şərh olunmuşdur:***

**1.Müasir iqtisadi münasibətlər sistemində infrastrukturun yeri və rolu**

XX-əsrin 90-cı illərin əvvəllərində ölkə iqtisadiyyatının bazar tipli iqtisadiyyata transformasiyası nəticə etibarı ilə respublikanın iqtisadi məkanında yeni keyfiyyət xüsusiyyətlərinə malik əmtəə, maliyyə, informasiya və digər bazarların təşəkkül tapmasına səbəb oldu. Təbii ki, qeyd edilən bu bazarların formalaşması xüsusiyyətləri və səviyyələri eyni olmasa da, onlardan bəziləri, məsələn, maliyyə, sığorta və kommersiya vasitəçilik xidməti bazarları, eləcə də istehlak malları bazarı bu və ya digər dərəcədə inkişaf etmiş

bazar hesab edilir. Lakin istehsal vasitələrinin istehsal və mübadiləsi sferasında iqtisadi münasibətlərin yenidən qurulması ilə əlaqədar baş verən proseslərin kifayət qədər mürəkkəb xarakter daşıması, bazar iştirakçıları arasında əlaqələrin irrasionallığı, qeyri-məhsuldar və transaksion xərclərin payının yüksək olması istehsal vasitələri bazarının formalaşması prosesini çətinləşdirir.

Bununla əlaqədar olaraq ilk növbədə bazar subyektlərinə xidmətlə bağlı çoxsaylı funksiyaları yerinə yetirən, subyektlər arasında sabit və qarşılıqlı iqtisadi əlaqələri təmin edən, eləcə də bütövlükdə bazarın fəaliyyəti üçün normal şərait yaradan sahələr kompleksinin və institutların inkişaf problemi ortaya çıxır. Çünki, sovetlər dönəmində infrastruktur məsələlərinin tədqiqinə məhz planlı iqtisadiyyatın tələbləri nöqteyi-nəzərindən yanaşılmış və bazar münasibətləri sistemi bərqərar olana qədər təsərrüfat praktikasında infrastrukturun rolu bir neçə səbəbdən (məsələn, bir elm; təsərrüfatçılığın aparılması metodu; uyğun iqtisadi sistem çərçivəsində təsərrüfat strukturlarının fəaliyyəti üçün normal şəraiti təmin edən obyektiv fəaliyyət növü; perspektiv xidmətlərə tələbin formalaşmasına imkan verən element kimi və s.) kifayət qədər qiymətləndirilməmişdir. Bu baxımdan müasir mərhələdə bu problem məsələnin tədqiqi prioritet əhəmiyyət kəsb edir.

Dünyanın elmi iqtisadi ədəbiyyatlarında "infrastruktur" anlayışı ilk dəfə ötən yüzilliyin əvvəllərində iqtisadi təhlil zamanı silahlı qüvvələrin normal fəaliyyətini təmin edən obyekt və qurğuların təyinatı, adlandırılması üçün istifadə olunmuş və ona logistika kateqoriyası ilə vəhdət halında baxılmışdır. Son zamanlar əksər mütəxəssislər infrastrukturu logistika ilə birgə nəzərdən keçirir və qeyd edirlər ki, "logistika-tələb, istehsalın təmin edilməsi, nəqliyyat və məhsulların bölüşdürülməsi kimi elementlərin dəqiq qarşılıqlı fəaliyyəti əsasında iqtisadiyyatın sair istehsal infrastrukturudur". Təbii ki, kifayət qədər əlaqə və bir-birini qarşılıqlı formada şərtləndirən elementlərin mövcud olmasına baxmayaraq bu kateqoriyaları qarışıq salmaq və eyni zamanda dəyişmək olmaz.

Bununla əlaqədar olaraq hesab edirik ki, müasir şəraitdə infrastruktur anlayışına iki aspektdən, yəni:

- iqtisadi kateqoriya - makroiqtisadi aspektdə maddi, operativ və bazar kompanentlərini özündə birləşdirməklə iqtisadiyyatın inkişafı və cəmiyyət üzvlərinin artan tələbatının ödənilməsi üçün kompleks şəraitin yaradılmasına istiqamətlənmiş istehsal gücləri və istehsal münasibətləri toplusu;
- sistem (cəmiyyətin mövcudluğu üçün mühüm şərtləri təmin edən, sistemlilik, utilitarlıq, resurstutumlu, uzunömürlü, universal kimi xassələrə malik olan, canlı əməyin istifadə edildiyi istehsal altsistemi) kimi yanaşılması daha məqsədəuyğundur.

İnfrastruktur anlayışının müəyyənləşdirilməsinə qeyd olunan bütün bu yanaşmalarda ilkin və təyinedici məqam ondan ibarətdir ki, əvvəla infrastruktur iqtisadiyyatın normal fəaliyyəti üçün zəruri şəraiti yaradan mühüm vasitə, mexanizm kimi dəyərləndirilir. İkincisi, bütün müəlliflər üçün ümumi hesab edilən digər yanaşma baxımından isə infrastrukturun bu və ya digər sahələr toplusu kimi müəyyənləşdirilməsinə cəhdlər göstərilir.

**2. İstehsal vasitələri bazarında məhsulyeridilişinə xidmət göstərən infrastruktur sahələri və onların əsas funksiyaları**

İqtisadiyyatın müəyyən inkişaf mərhələsində özünün iqtisadiyyatda yeri və roluna görə infrastruktur öz-özünə milli inkişafı təmin edən mühüm resurs növlərindən birinə çevrilmişdir. Ondan istifadə səviyyəsi və dərəcəsinə görə aşkar edilmişdir ki, infrastruktur sahələri istehsal sahələri ilə müqayisədə aşağıda qeyd edilən bir sıra üstünlüklərə malikdir:

- maddi istehsal sferasında dövrü olaraq baş verən enib qalxmalara infrastruktur olduqca incə həssaslıqla sabitləşdirici təsir göstərir və bununla da tənəzzül və böhran dövründə infrastruktur sahələrinin məhsullarına formalaşmış mövcud tələb paketini qoruyub saxlayır;
- infrastrukturun sürətli inkişafı, avadanlıq və texnologiyalar, eləcə də tikinti xidməti komplekslərinə yüksək tələblə əlaqədar olaraq müxtəlif sənaye sahələrinə, hər şeydən əvvəl maşınqayırma kompleksinin inkişafına həvəsləndirici xarakter daşıyan təsirlər göstərir;
- infrastruktur sahələrinin məhsullarına tələbi artırmaqla (hər şeydən əvvəl infrastrukturun özünün inkişafına impuls verən) yüksək multiplikativ effektivlik yaradır.

Bazar münasibətləri şəraitində istehsal güclərinin mövcud inkişaf səviyyəsini xarakterizə edən ən mühüm əlamət bütövlükdə cəmiyyət miqyasında funksional altsistemi kimi infrastruktur kompleksinin formalaşması hesab olunur.

Başqa sözlə, əmtəə bazarına xidmət göstərən infrastruktur məhsulyeridilişi prosesinin təşkili baxımından bütün zəruri funksiyaların yerinə yetirilməsi üçün lazım olan institusional, maddi və qeyri-maddi elementləri özündə birləşdirən mürəkkəb bir modeldən ibarətdir (şəkil 1).

Milli və ya regional səviyyədə infrastrukturun element baxımından tərkibinin müəyyənləşdirilməsi istər ölkə, istərsə də beynəlxalq səpkili iqtisad elmi üçün həmişə aktiv müzakirə predmeti olmuş və olmaqdadır. Bazar infrastrukturu istehsal və tədavül sferasında əmək, material və maliyyə axınlarının normal, maneəsiz hərəkəti üçün zəruri şəraiti təmin etməyə istiqamətləndiyindən onun tərkibinə istehsal güclərinin inkişaf səviyyəsi, cəmiyyətin siyasi sabitlik dərəcəsi, dövlətin inkişaf etmiş demokratik institutları, beynəlxalq əmək bölgüsü sistemində inteqrativlik və s. bu kimi müxtəlif amillər təsir göstərir. Sadalanan hər bir amilin təsir dərəcəsini müfəssəl təhlil etmədən, diq-

qətə almadan bazar infrastrukturunun bir neçə əsas əlamətlərini aşkar etmək mümkündür: təyinatı, sahə strukturu, fəaliyyət miqyası, xidmət etdiyi bazarın tərkibi və s.




Şəkil 1.Bazar infrastrukturu üzrə xidmətlərin əsas xassələri

Təbii ki, bu baxımdan kapital, əmək və material resursları axınına xidmət göstərən elementləri aşkar edib onları diqqətə almaq olduqca mühüm əhəmiyyət kəsb edir.

Bazar infrastrukturu haqqında kifayət qədər tam sistemli təsəvvürü məhz xidmət etdiyi bazarın tərkibi üzrə əlamət formalaşdırır. Əgər bazar iqtisadiyyatını əmtəə və xidmətlər, maliyyə aktivləri və fond qiymətliləri, əmək resursları bazarları toplusu kimi təsəvvür etsək, onda onlara xidmət göstərən infrastruktur əsasən:1) əmtəə və xidmətlər bazarının infrastrukturu; 2) kapital bazarının infrastrukturu; 3) əmək bazarının infrastrukturu; 4) reklam-informasiya infrastrukturu; 5) institusional infrastruktur; 6) istehsal (bölüşdürücü) infrastruktur; 7) ekoloji infrastruktur kimi altsistemlərdən ibarət olacaqdır (şəkil 2). Deməli, əmtəə bazarına xidmət göstərən infrastrukturun əsas vəzifəsi:

1.İstehsal müəssisələri və sahələri, eləcə də digər ictimai fəaliyyət sferaları arasında hərtərəfli və mürəkkəb xarakterli bütün kommunikasiya əlaqələrini təmin etmək;

**Bazar infrastrukturu**

*Əmtəə və xidmətlər bazarının infrastrukturu*:
- vasiəçilik fəaliyyətinin təşkili; əmtəə birjaları; topdansatış yarmarkaları; ticarət evləri; ticarət palatası və sərgi kompleksləri; broker kontorları; kommersiya firmaları, xüsusi satış mərkəzləri; lizinq və françayzinq; texniki vasitələrin kirayə məntəqələri; rielter fəaliyyəti; sənaye sahələrinin ixtisaslaşmış satış strukturları

*Əmək bazarının infrastrukturu:*
- əmək birjası; məşğulluq mərkəzləri; məşğulluğun tənzimlənməsi sistemləri və məşğulluğa təsir göstərən (dövlət və qeyri-dövlət) mərkəzlər; kadrların hazırlanması sistemi; sosial institutlar; ali və orta təhsil sistemi və digər elementlər

*Reklam-informasiya infrastrukturu:*
- reklam-informasiya kompleksləri; xüsusi reklam agentlikləri və kütləvi informasiya vasitələri; informasiya texnologiyaları və işgüzar kommunikasiya vasitələri; reytinq agentlikləri; analitik informasiya mərkəzləri; bazarın tədqiqi üzrə marketinq və logistik mərkəzlər

*Kapital bazarının infrastrukturu*:
- maliyyə institutları; emissiya, kredit və sığorta sistemi; emissiya və kredit bankları; kommersiya bankları; investisiya fondları; ictimai aktivliyi həvəsləndirən ictimai dövlət fondları; fond və valyuta birjaları; sığorta və investisiya şirkətləri

*İnstitusional infrastruktur:*
- vergi və vergiqoyma sistemi; gömrük sistemi və gömrük işinin təşkili; ali və yerli icra hakimiyyət orqanları; məhsulların sertifikasiyası və ekspertizası; auditor konsaltinq şirkətləri; sahibkarlıq fəaliyyətini müdafiə edən mülki təşkilatlar və humanitar fondlar

*İstehsal (bölüşdürücü) infrastruktur*:
- vasitəçi-bölüşdürücü təşkilatlar; kommersiya mərkəzləri, logistik servis mərkəzləri; konteyner terminalları və limanlar; nəqliyyat agentlikləri; anbar və nəqliyyat təsərrüfatı; nəqliyyat-ekspedisiya xidməti və s.

*Ekoloji infrastruktur*:
- ətraf mühitin mühafizəsi üzrə təşkilatlar; ətraf mühitin mühafizə ilə bağlı mühəndis qurğuları; sanitar müfəttişliyi, ekoloji nəzarət və s.

Şəkil 2. Xidmət etdiyi bazarın tərkibinə görə infrastrukturun təsnifatı

2.Milli iqtisadiyyata xidmət göstərən bəzi altsistemləri çoxsaylı funksiyalardan azad etmək və beləliklə də əmək bölgüsünün və kooperasiyanın inkişafına şərait yaratmaq;

3.Məhsulların istehlak xassələrinin saxlamasını təmin etmək;

4.Ayrı-ayrı məhsul qrupları üzrə tələb olunan həcmdə və səviyyədə istehsal və əmtəəlik ehtiyatlar yaratmaqdan ibarətdir.

Beləliklə, əmtəə bazarına xidmət göstərən infrastrukturun inkişafı optimal əmtəə mübadiləsinin baş verməsinə, əmtəə mübadiləsi sisteminin təkmilləşdirilməsinə, sivil sahibkarlıq fəaliyyətinə, hər şeydən əvvəl maddi-texniki təchizat və hazır məhsulun satışı zamanı yaranan problemlərin optimal həlli üçün əlverişli iqtisadi şəraitin formalaşmasına imkan verir.

**3. Logistik baxımdan istehsal vasitələri bazarının infrastukturunun formalaşması xüsusiyyətləri**

İstehsal vasitələri bazarının infrastrukturu istehsalçıdan istehlakçıya qədər böyük bir iqtisadi məkanı əhatə edir. Hazır məhsulu əldə etməklə o, potensial məhsulgöndərənləri tapır və seçir, onlarla məhsulların göndərilməsi şərtlərini müəyyənləşdirir, müqavilələr bağlayır, sahə və regionlar üzrə əmtəə axınlarının hərəkətini təşkil edir, məhsul satışını və istehlakçılara xidmət göstərilməsini tənzimləyir. Daha doğrusu, istehsal vasitələri bazarının infrastrukturu istehsal və istehlak sferaları arasında istehsal vasitələri, onlarla bağlı informasiya, xidmət və maliyyə vəsaitlərinin optimal və sürətli hərəkətinin təminatı üçün nəzərdə tutulan tədavülün təşkili formasıdır.

Təbii ki, əmtəə bazarının tərkib elementi kimi istehsal vasitələri bazarının normal fəaliyyəti yalnız bir-biri ilə mürəkkəb qarşılıqlı əlaqədə olan aşağıda göstərilən strukturların mövcudluğunu tələb edir:

- dövlətdən iqtisadi və hüquqi cəhətdən asılı olmayan məhsul istehsalçılarını;
- istehsal-texniki təyinatlı məhsullara qiymətqoyma prosesini təmin edən ixtisaslaşmış və universal birjaları;
- alqı-satqı sövdələşmələrin bağlanması və onların reallaşmasını yüksək peşəkar səviyyədə təmin edən vasitəçi (məsələn, broker, informasiya, məsləhət və s.) firmaları;
- məhsulların istehlakçılara qədər çatdırılmasını həyata keçirən nəqliyyat-ekspedisiya firmaları, eləcə də anbar əməliyyatlarının (yüklərin qəbulu, anbar sahələrinin icarəyə verilməsi, yükləmə-boşaltma, sortlaşdırma, dəstləşdirmə və qablaşdırma) yerinə yetirilməsi sahəsində ixtisaslaşmış firmaları;
- ticarət müəssisələrini (topdan və pərakəndə ticarət firmaları, ticarət evləri, "kirayə" xidməti sahəsində yəni, ticarət icarə və lizinqin formasında ixtisaslaşmış müəssisələr və s.);

İnzibati-amirlik sistemində olduğu kimi müasir iqtisadi şəraitdə də istehsal vasitələri bazarının infrastrukturu topdan və pərakəndə ticarətini, kommunikasiya şəbəkəsini, mülkiyyət formasından və tabeçilik əlamətindən

asılı olmayaraq vasitəçilik xidmətinin göstərilməsini həyata keçirən müxtəlif tip və növ müəssisə və təşkilatları özündə birləşdirir.

Beləliklə, istehsal vasitələri bazarının infrastrukturunun formalaşması və inkişafı istehsal və istehlak sferaları arasında qarşılıqlı fəaliyyət üçün əlverişli şəraitin yaradılmasını təmin etməklə mühüm vəzifəni yerinə yetirir.

Təbii ki, qeyd edilən bu vəzifənin effektiv formada yerinə yetirilməsi əsaslı dərəcədə məhsulyeridilişi sisteminin təkmil olmasını tələb edir. Hal-hazırda mövcud məhsulyeridilişi sisteminin təkmil olmamasının əsas səbəblərindən biri bir tərəfdən onun çoxsaylı elementləri arasında logistik tarazlığın olmaması ilə əlaqədardırsa, digər tərəfdən həm nəqliyyat-ekspedisiya və istehsal xarakterli xidmətlərin qiymətinin, həm də anbar təsərrüfatının saxlanmasına və yükləmə-boşaltma işlərinə çəkilən xərclərin yüksək olmasından ibarətdir.

Aparılan iqtisadi təhlil göstərir ki, bu gün məhsulyeridilişinə çəkilən xərclər içərisində məhz ən yüksək xüsusi çəkiyə malik material resurslarının nəqledilməsi (46%), anbar əməliyyatlarının yerinə yetirilməsi (26%) və əmtəə-material ehtiyatlarının optimal səviyyədə saxlanılmasına çəkilən xərclər (10%) təşkil edir (şəkil 3):




Şəkil 3. Məhsulyeridilişinə çəkilən xərclərin strukturu

Bu baxımdan istehsal vasitələri bazarına məhsul çıxaran istənilən subyekt, məhsulyeridilişinə çəkilən xərcləri azaltmaq üçün əsas diqqət və potensialını, hər şeydən əvvəl aşağıda göstərilən:

- material resurslarının yarandığı və ya logistik mərkəzlərdən təyinat məntəqəsinə qədər qısa və optimal nəqletmə marşurutunun seçilməsi;

- seçilmiş marşuruta uyğun mütərəqqi hərəkət formasının müəyyənləşdirilməsi, material resurslarının əlverişli və rasional nəqliyyat vasitələrindən istifadə etməklə çatdırılması;

- iqtisadi cəhətdən əlverişli hərəkət kanalının seçilməsi, yəni məhsulyeridilişi prosesinin minimum iştirakçılar hesabına təmin edilməsi kimi amillərə yönəltməlidir.

Lakin qeyd etmək lazımdır ki, məcmu xərclərin minimumlaşdırılmasına edilən cəhdlər məhsulların fiziki yerdəyişməsi zamanı məhsulgöndərənlərin və istehlakçıların tələbatının tam və vaxtında ödənilməsi kimi vacib amillərin mütləq nəzərə alınmasını tələb edir.

Beləliklə, mövcud dünya təcrübəsinə istinadən deyə bilərik ki, artan nəqliyyat xərclərini və material resursları üzrə ehtiyatların yaradılması və saxlanmasına çəkilən xərcləri əhəmiyyətli dərəcədə azaltmaq üçün ilk növbədə material axınlarının optimal hərəkətinə şərait yaradan və məhsulyeridilişi prosesinin bütün iştirakçılarının iqtisadi mənafe tarazlığına nail olan logistik prinsiplərdən və idarəetmə mexzanizmlərindən (sistemlərdən) praktik olaraq geniş istifadə olunmalıdır.

## 4.İstehsal vasitələri bazarında anbarların effektiv idarəedilməsi

Logistik sistem daxilində material axınlarının bir mərhələdən digər mərhələyə hər bir mərhələnin daxili tələblərinə uyğun formada keçidinin təşkil edilməsi məqsədi ilə ixtiyari istehsal vasitələri növü üzrə ehtiyatları konkret yerdə toplamaq və saxlamaq üçün anbarlar tələb olunur. Təbii ki, istehsal vasitələri bazarında strateji səviyyədə həll edilməli olan başlıca problem anbar şəbəkəsinin formalaşmasıdır. Qeyd olunan problemin həlli əgər bir tərəfdən material axınlarının yaranma, əmələgəlmə mənbəyindən son təyinat məntəqəsinə qədər hərəkəti ilə bağlı çəkilən xərcləri minimumlaşdırmağa imkan verirsə, digər tərəfdən hər bir istehlakçıya onun üçün lazım olan səviyyədə zəmanətli xidmət göstərilməsini təmin edir.

Anbarların sayı, növü, gücü və ərazi baxımından yerləşdirilməsi logistik dövrədən keçən material axınlarının kəmiyyətindən və onların rasional təşkilindən, satış bazarında mövcud konyunktur vəziyyətdən, satış bazarının tutumundan, bu bazarda istehlakçı qruplarından və onların ayrı-ayrı bazar seqmentlərində mərkəzləşməsi dərəcəsindən, məhsulgöndərənlərin istehlakçılara nisbi yaxınlığından, kommunikasiya əlaqələrinin xüsusiyyətlərindən asılı formada müəyyənləşdirilir.

Logistik sistemin mühüm elementi olaraq anbarların normal fəaliyyətini təmin edilməsinə çəkilən ümumi məsrəflərin kəmiyyəti aşağıdakı kimi müəyyənləşdirilir:

$$Z_{p.} = \sum_{i}^{n} C_i + \frac{K}{T} \qquad (1)$$

Burada, $Z_p$-çəkilən ümumi məsrəflər; n-ümumi xərc maddələrinin sayı; $C_1$-illik istismar xərcləri; $C_2$-illik nəqliyyat xərcləri; $C_3$-anbar sisteminin idarə edilməsinə çəkilən illik məsrəflər; $C_4$-ehtiyatların saxlanılmasına çəkilən illik məsrəflər; $C_5$-anbar sistemlərinin yaradılması üzrə qərarlar qəbul edən zaman nəzərə alınan və logistik sistemin fəaliyyəti ilə əlaqədar sair xərclər və itkilər; K-diskont norması üzrə tikintiyə və anbarların quraşdırılmasına yönəl-

dilən tam kapital qoyuluşları; T-özünüödəmə müddəti.

İstənilən halda logistik xərclərin minimumlaşdırılmasını təmin edən anbarların optimal yerləşdirilməsi variantını axtarıb tapmaq zəruriyyəti meydana çıxır. Bunun üçün tələb olunan optimallaşdırma meyarını aşağıdakı kimi ifadə edilə bilər:

$$F(X_{kn}) = \sum_{K=1}^{K}\sum_{n=1}^{N} \alpha_{kn} \times X_{kn} + \sum_{n=1}^{N} b_n \times \delta(X_n) \to min \qquad (2)$$

burada-($X_{kn}$) -n saylı anbardan k istehlakçısına göndərilən məhsulların illik həcmi; $\alpha_{kn}$ - n saylı anbar vasitəsi ilə k istehlakçısına məhsul sahibləri və ya ticarət firmaları tərəfindən məhsulların göndərilməsinə görə dəyişən xüsusi anbar-nəqliyyat xərcləri; $b_n$- satışın həcmindən asılı olmayaraq n saylı anbarın şərti-sabit logistik xərcləri; $X_n$ - n saylı anbardan satılan məhsulların illik həcmi; n=1,…., N;

Aşağıdakı məhdudiyyət şərtlərinə əməl etməklə $\delta(X_n)$ =1, əgər $X_n \geq 0$ ; $\delta(X_n)$= 0, əgər $X_n$= 0 olarsa:

1) istehlakçıların bütün anbar məhsulgöndərmələrinə tələbatı yalnız mövcud anbarlar hesabına ödənilməlidir:

$$\sum_{n=1}^{N} X_{nk} = P_k, k = 1, \dots, K; \qquad (3)$$

burada $P_k$ - k istehlakçısının illik tələbatı;

2) anbardan istehlakçılara göndərilən məhsulların həcmi onun əmtəə dövriyyəsinə bərabər olmalıdır:

$$\sum_{k=1}^{K} X_{nk} = X_n, n = 1, \dots N \qquad (4)$$

3) dəyişənlər müsbət olmalıdır:

$$X_{nk}\ e \geq 0;\ X_{nk}\ e \geq 0;\ n=1,\dots, N;\ k=1,\dots, K \qquad (5)$$

Anbarların yerləşdirilməsi mərkəzlərinin seçilməsi zamanı müxtəlif təyinatlı anbarların tikilməsi və istismarına çəkilən məsrəflərin minimumluğu, habelə məhsulların göndərilməsi və daşınmasına çəkilən nəqliyyat xərclərinin az olmasını təmin edən ən optimal, əlverişli varianta iqtisadi baxımdan üstünlük verilir. Nəqliyyat xərcləri nəqliyyat şəbəkələrinin inkişafına yönəldilən ilkin kapital qoyuluşlarından (dəmir yollarının çəkilişi və yenidən təmiri, hərəkətedici nəqliyyat heyətinin əldə edilməsi, alınması, nəqliyyat vasitələrinin saxlanılması üçün anbarların tikilməsi, nəqliyyat vasitələrinin təmiri üçün təmir-tikinti sahələrinin quraşdırılması və istismarına çəkilən xərclər) və yüklərin çatdırılması və daşınması üzrə (yüklərin nəql edilməsi, nəqliyyat vasitə-

ləri, obyektlər və qurğuların saxlanılması və təmiri ilə əlaqədar) xərclərdən ibarətdir.

Logistikanın populyarlıq qazanması nəticəsində firmaların rəqabət-qabiliyyətinin yüksəldilməsinin mühüm vasitəsi kimi ölkənin əksər təsərrüfat subyektlərinin mərkəzi elementinə çevrilən anbar güclərinə tələbat əsasən seçilmiş satış regionu və proqnozlaşdırılan satış həcminə görə (və ya əksinə) planlaşdırılır.

Azərbaycan Respublikasının daşınmaz əmlak bazarında fəaliyyət göstərən "MBA Consolting Group" şirkəti Bakı şəhəri və Abşeron yarımadasında mövcud olan əsas anbar komplekslərinin ümumi sahəsini 3.4 milyon.kv.metr qiymətləndirərək belə qənaətə gəlmişdir ki, onun 730 min kv. metrini A sinfinə aid edilən yüksək keyfiyyətli anbar sahəsi, bir milyon kv.metrə yaxını isə B sinfinə aid edilən və texniki təchizat səviyyəsi beynəlxalq standartların tələblərinə minimum dərəcədə uyğun gələn rekonstruksiya olunmuş "sovet" anbarları təşkil edir.

2016-cı ildə beynəlxalq standartların tələblərinə cavab verən anbar binalarının tikintisinin 600 min kv.metrə çatdırılması planlaşdırılsa da "MBA Consolting Group"şirkətinin proqnoz məlumatlarına görə cari ildə A və B sinfinə aid edilən 400-500 min kv.metr yeni anbar binaları tikilib istifadəyə veriləcək.

Beləliklə, 2016-ci ilin sonuna kimi təhlil edilən bazarda potensial təklifin həcmi müxtəlif qiymətləndirmələrə görə 3.6-4.3 milyon kv.metr olacaqdır ki, bununda 1.2-1.9 milyon kv.metrini A və B sinfinə aid edilən anbar sahələri təşkil edəcəkdir.

Bakı şəhəri və Abşeron yarımadasında anbar sahələrinin ölçü xarakteristikaları nəzərə alınmaqla zonalar üzrə icarəyə təklifləri bir-birindən əsaslı formada fərqlənir (bax.cədvəl 1).

***Cədvəl 1***

**Sahəsindən asılı olaraq icarəyə verilən anbarların zonalar üzrə bölüşdürülməsi**

| Anbar sahələri, kv.m | Birinci zona | İkinci zona | Üçüncü zona |
|---|---|---|---|
| 50 -qədər | 2.7 | 3.9 | 0 |
| 50-100 | 3.0 | 4.4 | 0 |
| 100-500 | 29.9 | 36.0 | 16.8 |
| 500-1000 | 18.5 | 18.4 | 18.7 |
| 1000-3000 | 31.3 | 27.2 | 40.2 |
| 3000-dən artıq | 14.6 | 10.1 | 24.3 |

*Mənbə: "MBA Consolting Group"-un məlumatları əsasında müəllifin hesablamaları*

Cədvəldən göründüyü kimi Bakı şəhəri ərazisində təklif edilən anbar sahələri əsasən 100-500 və 1000-3000 kv.m arasında olduğu halda 1000 kv. metrdən artıq təklif edilən anbar sahələrinin 64.5%-i isə məhz üçüncü zonanın payına düşür. Nəzərə almaq lazımdır ki, üçüncü zona üzrə təklifin həcminin belə çox olması onun digər zonalarla müqayisədə az yuklənməsi ilə əlaqədardır.

Eyni zamanda onu da nəzərə almaq lazım gəlir ki, tələb paketində baş verən dəyişikliklərə bir qayda olaraq siniflər üzrə anbar sahələrinin icarə haqları təsir göstərir (bax.cədvəl 2).

***Cədvəl 2***

**2014-cü ildə siniflər üzrə anbar sahələrinin icarə haqları, dollarla**

| Zonalar | İllik icarə haqları (man/kv.metr) | | | |
|---|---|---|---|---|
| | A sinfi | | V sinfi | |
| | minimum | maksimum | minimum | maksimum |
| Birinci | 135 | 150 | 80 | 115 |
| İkinci | 90 | 110 | 70 | 95 |
| Üçüncü | 70 | 85 | 50 | 75 |

*Qeyd: ƏDV-ni nəzərə almayan bütün icarə haqlarına əmlakın idarəedilməsi, təhlükəsizliyin təmin olunması, texniki və kommunal xidmətlərlə bağlı əməliyyat xərcləri daxil edilmir.*

Cədvəl məlumatlarından da göründüyü kimi sinfindən asılı olmayaraq bu gün respublikamızda anbar sahələrinin icarə haqları Avropa ölkələri ilə müqayisədə (Moskava şəhəri istisnalıq təşkil etməklə il ərzində bir kv.metr anbar sahəsinə görə haqlar 60-80 dollar arasında tərəddüd edir) 2.3-2.5 dəfə çoxdur.

Rieltor şirkətlərinin məlumatlarına görə 2016-cı ildə anbar sahələrinin icarə haqlarında A sinfi üzrə 10%, B-sinfi üzrə isə 12% artım gözlənilir. Aparılan hesablamalar göstərir ki, anbar xidmətləri bazarı inkişaf etdikcə anbar sahələrinin icarə haqları əməliyyat xərcləri daxil olmaqla 2016-cı ilin sonuna kimi 150-155 manat/kv.metr səviyyəsində qərarlaşacaqdır.

**5.İstehsal vasitələri bazarının infrastruktur elementi kimi məhsulyeridilişinin nəqliyyat təminatı**

İstehsal vasitələri bazarının optimal fəaliyyəti, bu bazarda material resurslarının yeridilişi, hərəkəti məhz infrastruktur elementi kimi nəqliyyat amilindən birbaşa asılıdır və onun hesabına təmin edilir. Bu o deməkdir ki, məhz nəqliyyat hərəkətin sürəti və trayektoriyası, hərəkətin müddəti, gücü və

intensivliyi kimi əsas parametrlər üzrə istehsal vasitələrinin hərəkəti üçün lazım olan rejimi təmin edir.

Azərbaycan Republikasında bazar münasibətləri sisteminin formalaşmasının strateji hədəf seçildiyi ilk illərdən ehtibarən istənilən nəqliyyat növünün seçilməsi zamanı onun texniki-istismar göstəriciləri, yükdaşıma imkanları və coğrafi baxımdan heç bir məhdudiyyətlə rastlaşmaması, eləcə də konkret nəqliyyat vasitəsindən istifadənin əlverişli olması kimi amilləri mütləq nəzərə almaq lazım gəlir. Bu baxımdan ölkənin istehsal vasitələri bazarında material axınlarını formalaşdırmaq məqsədi ilə səmərəli nəqliyyat növünün seçilməsi və müqayisəli qiymətləndirilməsinin aparılması üçün onların faktiki texniki-istismar və iqtisadi göstəriciləri mütləq nəzərə alınmalıdır (bax,cədvəl 3).

*Cədvəl 3*

**2014-cü ildə Azərbaycan Respublikasının nəqliyyat sisteminin texniki-istismar və iqtisadi göstəriciləri**

| Nəqliyyat növü | Daşınan yüklər, min/ton | Bir ton yükün orta daşınma məsafəsi, km | Yük dövriyyəsi, mlyn. t/km | Yükdaşımalara çəkilən xərclər, min/manat | Yükdaşımalardan əldə olunan gəlirlər, min/ manat | Nəqliyyata yönəldilmiş investisiyalar, mlyn/manat | Ümumi yük dövriyyəsində xüsusi çəkisi, %-lə |
|---|---|---|---|---|---|---|---|
| Dəmir yolu | 21.795 | 338.2 | 7.371 | 1.990.343 | 236.303 | 416.2 | 7.9 |
| Avtomobil | 128.603 | 112.9 | 14.516 | 415.678 | 1.020.030 | 358.2 | 15.51 |
| Dəniz | 9.934 | 415.1 | 4.124 | 119.029 | 102.339 | 142.6 | 4.4 |
| Hava | 125.0 | 3.848 | 481.0 | 770.221 | 837.820 | 82.2 | 0.5 |
| Cəmi | 244.837 | 398.6 | 93.531 | 1.990.343 | 3.678.120 | 2.432.4 | |

*Mənbə: DSK-nin məlumatları əsasında müəllifin hesablamaları*

Qeyd edilən nəqliyyat növlərini xarakterizə edən hər bir göstəricinin dəyər formasında ifadə olunmamasına baxmayaraq cədvəldə göstərilən göstəricilər üzrə təhlilin aparılması idarəetmə qərarlarının qəbulu zamanı bütün müsbət və mənfi aspektlərin nəzərə alınmasını tələb edir. Belə ki, cədvəl məlumatlarının müqayisə edilməsi material axınlarının idarəedilməsi funksiyasını yerinə yetirən logistik menecerlərə imkan verir ki, bazar rəqabətinin formalaşdığı bir şəraitdə texniki-istismar və iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla bu və ya digər nəqliyyat növü üçün əvvəlcədən məhsulyeridilişi kanallarının seçilməsi problemini operativ həll edə bilsin. Təbii ki, bu tipli problemin həlli təsərrüfat suybektlərinə imkan verir ki, onlar ayrı-ayrı maddələr üzrə logistik xərclərə (logistik metodların tətbiqi ehtiyatların səviyyəsini 30-50%, nəqletmə müddətinin isə 25-45% azaldılmasına imkan verir) qənaət imkanı əldə etsinlər.

Respublikamızın istehsal vasitələri bazarının nəqliyyat infrastrukturu sahəsində əhəmiyyət kəsb edən mühüm məqamlardan biri də hərəkətedici

heyətin yükgötürmə qabiliyyəti ilə yol qurğularının parametləri və keyfiyyət xarakteristikaları arasında funksional asılılığın nəzərə alınması hesab olunur.Təbii ki, bu asılılıq hər bir nəqliyyat növü üzrə müxtəlif formada təzahür edir. Respublikanın nəqliyyat yollarının keyfiyyət və kəmiyyət xarakteristikaları cədvəl 4-də təsvir edilmişdir.

*Cədvəl 4*

**2014-cü il üçün Azərbaycan Respublikasının nəqliyyat yollarının xarakteristikası**

| Nəqliyyat yolunun növü | Kəmiyyət | | Keyfiyyət | |
|---|---|---|---|---|
| | Əlaqə yollarının uzunluğu, min.km | İstimar uzunluğu min. km | Şəbəkənin sıxlığı, min km /ədəd | Yükgərginliyi, milyon ton/km |
| Dəmir | 2.94 | 2.12 | 8.4 | 10.2 |
| Avtomobil | 19.01 | 18.9 (bərk örtüklü) | 74.6 | 6.8 |
| Dəniz | 12.6 | 12.0 (zəmanət verilən dərinliklə) | 6.6 | 8.2 |
| Hava | 80.0 | 50.0 (müntəzəm reyslər) | 2.9 | 0.02 |

*Mənbə: Cədvəl müəllifin hesablamaları əsasında tərtib edilmişdir.*

Cədvəl 4-dən göründüyü kimi çoxmərhələli logistk dövrənin formalaşması üçün nəqliyyat yolunun uzunluğunu və onun keyfiyyət xarakteristikalarını (yolun az-çox yüklü olan hissəsi uçota alınmaqla) mütləq mənada nəzərə almaq lazım gəlir. Digər tərəfdən təbii ki, nəqliyyat şəbəkəsinin buraxılış qabiliyyətinə təsir edən şəbəkənin sıxlığı və yükgərginliyi mühüm parametrlər hesab olunurlar.

## 6. İstehsal vasitələri bazarının infrastruktur kompleksində topdansatış ticarətinin rolunun qiymətləndirilməsi

Məhsulların sərbəst alqı-satqısına əsaslanan ölkə iqtisadiyyatının bazar münasibətləri sisteminə keçməsi yeni təsərrüfatçılıq şəraitində istehsal vasitələri bazarında topdansatış ticarətinin rolunun və həyata keçirilməsi konsepsiyasının müəyyənləşdirilməsi zəruriyyətini meydana çıxardı. Dünyada ticarətin topdan şəbəkəsinin təşkili və idarəedilməsi sahəsində kifayət qədər pozitiv təcrübənin toplanmasına baxmayaraq ölkəmizdə topdansatış ticarəti ən geri qalmış sahə və formalaşması uzun illər tələb edən yegənə bazar formasıdır.

Təbii ki, Azərbaycan Respublikası bazar iqtisadiyyatı doktirinasını qəbul etdikdən sonra istehsal vasitələri bazarında mahiyyət baxımından baş verən əsaslı keyfiyyət dəyişiklikləri ilk növbədə sözügedən bazarın infrastruktur elementi kimi topdansatış ticarətinin rolunun əhəmiyyətli dərəcədə genişlənməsi ilə xarakterizə olunur.

İstehsal vasitələri bazarının infrastruktur təminatında mühüm element hesab olunan topdansatış ticarətini həyata keçirən müəssisələrinin təsərrüfat fəaliyyətinin nəticələrini qiymətləndirmək üçün aparılan iqtisadi təhlilin məqsədindən asılı olaraq müvafiq göstəricilər sistemindən isifadə olunur.

Tədavül sferasına mənsub müəssisələrin fəaliyyətinin iqtisadi səmərəliliyini kompleks qiymətləndirmək, eləcə də onun səviyyəsi və dinamikası haqqında birmənalı fikir yürütmək üçün fikrimizcə, bir ümumiləşdirici göstəricidən istifadə olunması daha məqsədəmüvafiqdir (şəkil 4).

| Fəaliyyətin həyata keçirilməsi şərtləri | Topdansatış vasitəçi strukturların fəaliyyəti | | |
|---|---|---|---|
| | Tədavül amilləri | | |
| | İşçi qüvvəsi | Əmək vasitələri | Əmək predmeti |
| Təsərrüfat fəaliyyətinə çəkilən məsrəfləri xarakterizə edən iqtisadi göstəricilər | -əmək haqqı fondu;<br>-əmək haqqı fondundan büdcədənkənar fondlara ödəmələr. | Əsas fondların dəyəri | Ehtiyat formasında olan dövriyyə fondlarının dəyəri |
| Müəssisənin fəaliyyətinin miqyasını və həcmini xarakterizə edən göstəricilər | Satışdan əldə edilən ümumi gəlir | | |
| Fəaliyyətin tələb olunan miqyasına və həcminə nail olmaq üçün çəkilən məsrəflərin effektivlik göstəriciləri | Tədavül xərclərinin səviyyəsi<br>$S_{tx}=T_x/Ü_g$<br>burada:<br>$T_x$-tədavül xərcləri;<br>$Ü_g$-ümumi gəlir. | Fondtutumu<br>$F_t = F_v/Ü_g$<br>Burada:<br>$F_v$-əsas istehsal fondlarının dəyəri. | Ehtiyattutumu<br>$E_t=Ə_{d.v}/Ü_g$<br>Burada:<br>$Ə_{d.v}$-əmtəəlik ehtiyat formasında olan dövriyyə vəsaitləri |
| Fəaliyyətin səmərəliliyini xarakterizə edən ümumi göstərici | | $Ü_g = S_{tx}+E_n(E_t+F_t)$<br>burada $S_{tx}$ - tədavül xərclərinin səviyyəsi; $F_t$ - fondtutumu, qəpik/manat; $E_t$ – ehtiyattutumu, qəpik/manat; $E_n$- kapital qoyuluşlarının səmərəliliyinin normativ əmsalı | |

Şəkil 4. Topdansatış strukturlarının iqtisadi fəaliyyətinin müqayisəli qiymətləndirmə metodikası

Məhsulyeridilişinin idarəedilməsinə logistik yanaşmaya əsaslanan bu metodika üzrə aparılan təhlil göstərir ki, 2010-2014-cü illərdə topdansatış strukturlarının fəaliyyət ilə bağlı nəticələrdə azalma meylləri müşahidə olunmuş, iqtisadi səmərəlilik aşağı düşmüşdür.

2014-cü ildə topdansatış strukturlarının ümumi gəliri 2010-cu ildə əldə etdikləri ümumi gəlirin cəmi 41%-ni təşkil etmişdir. Məlum olduğu kimi ümumi gəlirin həcmi əsasən müəssisələrdə məhsul satışının həcmi, ticarət əlavələrinin səviyyəsi, tədarük edilən məhsulların qiymətinin dəyişməsi, müəssi-

sənin gəlirləri hesabına ödənilən vergi tədiyyələrinin dərəcəsi kimi bir sıra amillərdən asılıdır. Qeyd edilən bu amillərin bu və ya digər tərəfə dəyişməsi nəticə göstəricilərinə bilavasitə təsir göstərir. Tədqiq edilən dövr ərzində müəssisələrin topdansatış ticarətinin həcmi 60.1% artmışdır.

Təbii ki, yüksək dərəcəli təchizat-satış əlavələrinin tətbiq edilməsi topdansatış müəssisələrində mənfəət və rentabelliyin artırılması üçün həm metodiki, həm də praktiki baxımdan yolverilməz hesab olunur. Aydındır ki, metodoloji baxımdan ticarət əlavələrinin artırılması göstərilən xidmətin bahalaşmasına və istehlakçılarda əlavə xərclərin yaranmasına səbəb olur. Faktiki olaraq təhlil aparılan dövr ərzində ticarət əlavələrinin səviyyəsi 1.5 dəfə artmışdır. Praktiki baxımdan isə topdansatış vasitəçilərinin fəaliyyət sferasının və xidmət göstərdikləri istehlakçı dairəsinin genişlənməsi üçün malik olduqları bütün imkanları məhdudlaşdırır. Təsadüfü deyil ki, 2014-cü ildə ticarət əlavələri özündən əvvəlki ilə nisbətən 6.2% azalmışdır.

Topdansatış strukturlarının fəaliyyətini xarakterizə edən göstəricilərin dinamik təhlili onu deməyə əsas verir ki, son dövrlərdə topdansatış ticarəti üzrə əmtəə dövriyyəsinin həcmi artdıqca anbar məhsul satışının həcmi də müvafiq olaraq artmışdır (bax.cədvəl 5).

***Cədvəl 5***

**Topdansatış ticarəti müəssisələrində məhsul satışının həcmi (min manat)**

| Göstəriclər | 2010 | 2012 | 2013 | 2014 | 2010-cu ilə nisbətən 2014-cü ildə |
|---|---|---|---|---|---|
| Ümumi satışın həcmi | 15.1 | 20.55 | 22.74 | 25.13 | 1.66 d |
| O cümlədən anbardan satılmışdır | 7.8 | 12.02 | 12.88 | 14.12 | 1.8 d |
| Anbar satışının xüsusi çəkisi %-lə | 51.7 | 58.5 | 56.6 | 56.2 | 4.5 |

*Mənbə: Cədvəl müəllifin hesablamaları əsasında tərtib edilmişdir.*

Cədvəl 5-dən göründüyü kimi 2014-cü ildə məhsul satışının həcmi 2010-cu ilə nisbətən 1.66 dəfə (60,1%), 2013-cü illə müqayisədə isə 1.09 dəfə (9.6%) artsa da təhlil aparılan dövr ərzində anbar məhsul satışının həcmi də müvafiq olaraq 1.8 dəfə artmışdır. Topdansatış ticarətinin həcminin artmasına mütənasib formada anbar məhsul satışının da artmasını statistik təsvir edən cədvəl məlumatları bir daha sübut edir ki, topdansatış ticarəti qaydasında reallaşdırılan istehsal vasitələrinin ümumi həcmində anbar məhsul satışının xüsusi çəkisi tədqiqat aparılan illər üzrə 51-58% təşkil etmişdir.

Aparılan hesablamalar göstərir ki, bu gün orta hesabla bir xüsusi müəssisənin 244.0 kv.metr və 12.0 tonluq, açıq tipli səhmdar cəmiyyətin 847.0 kv.metr və 38.0 tonluq, fərdi məhdud məsuliyyətli yoldaşlıq müəssisəsinin isə 41.0 kv. metr ölçüsündə anbar sahəsinə və 2,3 ton həcmində soyuducu tutumuna malik olmasına baxmayaraq 3 min.kv.metr ümumi istifadə təyinatlı anbar sahələrinə malik topdansatış ticarəti vasitəçiləri anbar məhsul satışını həyata keçirən zaman mövcud anbar sahələrini yalnız 40-60% səviyyəsində yükləyə bilmişlər.

Respublikada topdansatış ticarətinin mövcud durumunun aparılan təhlili və aşkar edilən problemləri topdansatış müəssisələrinin logistik prinsip və metodlarla idarəedilməsi məsələsini diqqət mərkəzinə çəkir və bu məsələdə sistemli yanaşmadan istifadə edilməsini labüdləşdirir. Onu da qeyd etmək lazımdır ki, bir iqtisadi münasibətlər sistemindən digərinə keçid dövründə etibarlı, dəqiq və normativ məhdudiyyətlər, başqa sözlə, liberal biznes üçün zəruri şərait olmur. Buna görə də idarəetmə məsələsinə təklif edilən sistemli yanaşma qəbul edilən qərarların təsir sferasına düşən obyektlərin yol verilməyən ziyanlarının azaldılmasını, aradan qaldırılmasını təmin etməlidir.

**7.Ölkəmizdə istehsal vasitələri bazarının infrastrukturunun dövlət tənzimlənməsi zəruriliyi**

Bazar iqtisadiyyatına keçid dövründə toplanan təcrübə bir daha sübut etdi ki, bazar mexanizmi infrastruktur subyektləri arasında mövcud qarşılıqlı münasibətlərin əsas və yeganə mümkün tənzimləyici hesab edilmir. Bu subyektlərin fəaliyyəti ilk növbədə dövlət tərəfindən müəyyənləşdirilən iqtisadi, inzibati və hüquqi normalar sistemi vasitəsi ilə tənzimlənir.

Ölkəmizdə istehsal vasitələri bazarının infrastrukturunun tənzimlənməsi fikrimizcə özündə ilk növbədə istehsal vasitələri bazarına mənsub olan subyektlərin fəaliyyətinin qaydaya salınmasını, onların fəaliyyəti üzrə norma və qaydaların müəyyənləşdirilməsini, bu subyektlərin dinamik və effektiv inkişafına imkan verən bazar davranışları üzrə standartların işlənib hazırlanmasını ehtiva edir. İstehsal vasitələri bazarının infrastrukturunun dövlət tənzimlənməsinin obyekti kimi ticarət vasitəçi təşkilatlar, nəqliyyat müəssisələri və agentlikləri, xüsusi anbar şəbəkəsinə malik müxtəlif təsərrüfat subyektləri, logistik mərkəzlər, istehsal vasitələrini icarəyə verən lizinq şirkətləri və kirayə məntəqələri, subyekti kimi isə bu bazarda infrastruktur elementlərinin yaradılmasına, formalaşmasına və fəaliyyətinə şərait yaradan, eləcə də onların fəaliyyəti ilə əlaqədar müəyyən parametrləri tənzimləyən dövlət və bələdiyyə orqanları çıxış edir.

İstehsal vasitələri bazarının infrastrukturunun formalaşması, normal fəaliyyəti və inkişafı logistik monitorinq mexanizminə əsaslanmaqla dövlətin aşağıda göstərilən tənzimlənmə metodlarından:

- birbaşa və dolayı idarəetmə vasitəsi ilə iqtisadi-hüquqi təsir metodları;

- indikativ idarəetmənin köməkliyi ilə infrastruktur subyektlərinin fəaliyyətinin təşkili və əlaqələndirilməsi texnologiyasının indikativ qaydalarını, bu subyektlərin təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərin uçotu və təhlilinin koordinasiyası üzrə elmi-metodiki təminatı nəzərdə tutan məsləhət metodlarından istifadə olunmasını nəzərdə tutur.

Aydındır ki, dövlət idarəetmənin sadalan bu metodları monitorinq mexanizminə və sözügedən bazarın infrastruktur elementlərinin fəaliyyətini xarakterizə edən göstəricilərin cari vəziyyətinin analitik qiymətləndirilməsinə əsaslandıqda onlardan istifadə daha səmərəli olur. Odur ki, təhlil prosesində dövlətin idarəetmə metodlarının verə biləcəyi son nəticələri, idarəetmə sisteminin iqtisadi səmərəliliyini, birbaşa və dolayı formada infrastruktur elementlərinin inkişafını kəmiyyət və keyfiyyət parametrləri üzrə qiymətləndirməyə imkan verən göstəriciləri mütləq nəzərə almaq lazımdır.

Birbaşa idarəetmə metodları istehsal vasitələri bazarında material axınlarının idarəedilməsi ilə əlaqədar olaraq dövlətin bilavasitə nəzarəti altında olan təsərrüfat sahələrini uçota almaqla müvafiq infrastuktur elementlərinin fəaliyyətinin təşkilati-hüquqi tənzimlənməsinə istiqamətlənib. Belə infrastruktur elementlərinə, hər şeydən əvvəl, nəqliyyat terminalları və uyğun olaraq bununla üzvü, hətta struktur (infrastruktur elementlərinin inteqrasiya proseslərinin dərinləşməsi və anbar əməliyyatları iştirakçılarının qarşılıqlı fəaliyyəti nəticəsində yaranan) baxımdan bağlı olan topdansatış müəssisələri aid edilir.

İstehsal vasitələri bazarının infrastruktur elementlərinin normal fəaliyyət və inkişafı üçün dövlət tənzimlənməsinin yuxarıda göstərilən iqtisadi-hüquqi təsir metodlarından başqa, bu infrastruktur subyektlərinin elmi-metodiki təminatı, innovativ xarakterli səmərəli yeniliklərin iqtisadi cəhətdən müdafiəsi, dövlət idarəetmə orqanlarından bilavasitə asılı olan və sistemli inkişaf meyllərinə hələ kifayət qədər malik olmayan informasiya əlaqələrinin təmin edilməsi olduqca böyük əhəmiyyət kəsb edir.

İstehsal vasitələri bazarının infrastruktur elementlərinin fəaliyyəti haqqında toplanan informasiyalar və proqnoz qiymətləndirmələri tələb edir ki, informasiya və məsləhət xarakterli metodiki materialların hazırlanması yolu ilə onların inkişafına təsir edə biləcək tədbirlər sistsemi işlənib həyata keçirilsin.

Göründüyü kimi istehsal vasitələri bazarının infrastruktur subyektlərinə və dövlətin məsləhət metodları vasitəsilə təsiri bu subyektlərin fəaliyyətinin əlaqələndirilməsinə, təsərrüfat praktikası haqqında mövcud informasiyalarla qarşılıqlı təmin edilməsinə, elmi yeniliklərin tətbiqinə və s. köməklik göstərir.

Beləliklə, istehsal vasitələri bazarının infrastruktur subyektlərinin fəaliyyətinin dövlət tənzimlənməsi:

- ölkə iqtisadiyyatında infrastruktur subyektlərinin rolunun aktivləşdirilməsinə və onların logistik fəaliyyəti ilə bağlı iqtisadi səmərəliliyinin yüksəldilməsinə;
- bu subyektlər tərəfindən göstərilən xidmətlərin çeşidinin genişləndirilməsi və intensifikasiyasına iqtisadi marağın artırılmasına;
- məhsulyeridilişinin təşkili üzrə logistik xərclərin minimumlaşdırılmasına köməklik göstərəcəkdir.

## 8. Azərbaycan Respublikasında istehsal vasitələri bazarının infrastrukturunun təkmilləşdirilməsi istiqamətləri

Əmtəə bazarının səmərəli fəaliyyət göstərməsinin mühüm şərtlərindən biri onun tərkib elementi kimi istehsal vasitələri bazarının istər bütövlükdə respublika səviyyəsində, istərsə də regional baxımdan inkişaf konsepsiyasının formalaşmasından ibarətdir. Hal-hazırda istehsal vasitələri bazarının infrastrukturunun inkişafı həm respublika, həm də regional səviyyədə prioritet əhəmiyyət kəsb edir.

Bazar infrastrukturunun, o cümlədən istehsal vasitələri bazarının infrastrukturunun aktiv inkişaf etdirilməsi və təkmilləşdirilməsi mühüm problem olmaqla, ölkə iqtisadiyyatının müasir bazar iqtisadi münasibətləri sisteminin tələbləri səviyyəsində qurulmasına xidmət göstərir.

Ölkədə istehsal vasitələri bazarının infrastrukturunun inkişaf istiqamətlərini şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1.İstehsal vasitələri bazarında sivil infrastrukturun yaradılması regional, sahə və institusional aspektdə müxtəlif iqtisadi subyektlərin fəaliyyətinin əlaqələndirilməsini tələb edir. Buna görə də sözügedən bazarın infrastrukturunu inkişaf etdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən kompleks sistemli yanaşma əsasasında konkret fəaliyyət proqramı işlənib hazırlanmalı və həyata keçirilməlidir.

2.İstehsal vasitələri bazarında məhsulyeridilişinin optimal təşkilinə imkan verən iqtisadi həvəsləndirmə metodlarının təkmilləşdirilməsi.

Təbii ki, istehsal vasitələri bazarının infrastrukturu çərivəsində məhsulyeridilişinin təşkilinin gələcəkdə daha da inkişaf etdirilməsi bilavasitə sözügedən bazara mənsub olan subyektlərin iqtisadi maraqlarının təmin edilməsi və məhsulyeridilişi prosesinin iştirakçılarının kompleks həvəsləndirilməsi sisteminin tətbiqi ilə qarşılıqlı əlaqəlidir. Belə bir sistem təchizat-satış xidməti göstərən subyektlərdə məhsuldaşımalara və anbar əməliyyatlarına çəkilən xərclərin azaldılmasına marağı artırır, nəqliyyat xidmətinin keyfiyyətinin yaxşılaşdırılmasına dövlətin iqtisadi təsir vasitələrindən istifadə imkanlarını genişləndirir, məhsulyeridilişi prosesinin iştirakçılarının birgə təsərrüfat fə-

aliyyətini xarakterizə edən göstəricilərin yaxşılaşdırılması üçün qarşılıqlı iqtisadi maraqlarını təmin edir.

3.Vasitəçi strukturlar tərəfindən göstərilən xidmətlərin spektrinin genişləndirilməsi.

4. Məhsulyeridilişinin nəqliyyat təminatını yaxşılaşdırmaq məqsədi ilə logistik mərkəzlərin formalaşdırılması və yerləşdirilməsi.

İlk növbədə nəzərə alınmalıdır ki, müxtəlif funksional təyinatlı firmalararası, xarici logistik mərkəzlərin yerləşdirilməsi strategiyası isə çoxsaylı amilləri (sosial, iqtisadi, investisiya və s.) nəzərə alan metodoloji yanaşmalar kompleksinin işlənib hazırlanmasına əsaslanır.

Bu zaman iqtisadi (nəqliyyat) amilin diqtə etdiyi əsas şərt ondan ibarətdir ki, əgər istehsalıçılar “ucuz” ilkin xammalın emalına üstünlük verirlərsə, onda logistik mərkəzlər coğrafi baxımdan bu mənbəyə yaxın yerləşdirilməlidir. Əksinə əgər istehsalçılar dəyəri yüksək olan “bahalı” məhsul istehsal edirlərsə, onda logistik mərkəzlər tədiyyə qabiliyyətli tələbi yüksək olan əhali qrupunun yerləşdiyi məntəqələrə və ya istehsal sahələrinə yaxın yerlərdə təşkil edilməlidir. Deməli, əmtəə-yük bazalarının formalaşması ilə əlaqədar işlərin düzgün qurulması ümumi istifadə təyinatlı logisik mərkəzlərin yerləşməsinə əhəmiyyətli dərəcədə təsir edir.

Təbii ki, logistik mərkəzlərin düzgün yerləşdirilməsi hər şeydən əvvəl, ölkənin iqtisadi regionlarının demoqrafik, təbii, iqtisadi, nəqliyyat, sosial, enerji və s. amillər baxımından qeyri-bərabər inkişafını nəzərə almaqla onların proporsional inkişafı probleminin həllində də mühüm rol oynayır. Deməli, nəqliyyat-terminal kimi logistik amilin düzgün qiymətləndirilməməsi istehsalın regional təşkilinə və yerləşdirilməsinə neqativ təsir edə bilər. Buna görə də ümumi istifadə təyinatlı logistik mərkəzlərin yerləşdirilməsi və nəticədə yaranan iqtisadi səmərəlilik (həm logistik, həm də logistikadan kənar) mütləq diqqət mərkəzində saxlanılmalıdır.

5.İstehsal vasitələri bazarının informasiya təminatının yaxşılaşdırılması.

Müntəzəm informasiyalar ilkin olaraq son dövrlərdə infrastruktur subyektlərinin statusu və fəaliyyətlərində əmələ gələn dəyişikliklər, habelə bu subyektlərin xüsusiyyətləri və fəaliyyətlərini xarakterizə edən keyfiyyət göstəricləri haqqında məlumatları özündə birləşdirməlidir. Belə olan halda yerli hakimiyyət orqanları yerlərdə infrastruktur subyektləri tərəfindən göstərilən mütərəqqi təcrübə və səmərəli xidmət növləri haqqında məlumatlı olurlar ki, bu da onlara perspektiv dövr üçün infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı konkret fəaliyyət mexanizminin işlənib hazırlanmasına imkan verə bilər.

**Dissertasiyanın əsas elmi nəticələrinə dair aşağıdakı elmi əsərlər çap olunmuşdur**

1.Əhmədova T.V.“Müasir iqtisadi şəraitdə Azərbaycanda qiymətli kağızlar bazarının inkişaf perspektivləri” //Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi Əsərlər. I hissə. Bakı 2010, səh. 159-163.

2.Əhmədova T.V. və dos.Quliyev E.N.“Neft maşınqayırma müəssisələri və onların məhsul siyasətinin təkmilləşdirilməsi istiqamətləri” //2009-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2010, səh. 147-149.

3.Əhmədova T.V. və dos.Quliyev E.N. “Birjalar və onların dünya təsərrüfat sisteminə inteqrasiyası problemləri”// 2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2011, səh. 123-124.

4.Əhmədova T.V. “Azərbaycan fond bazarında dinamik tarazlığın təmin edilməsi istiqamətləri”//2010-cu ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2011, səh.134-135.

5.Əhmədova T.V. və dos.Quliyev E.N.“Marketinq kommunikasiyalarının təkmilləşdirilməsi yolları” //2011-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2012, səh.158-160.

6. Əhmədova T.V.“Маркетинг как современная концепция управления” //Современные тенденции науки и образования. Сборник научных трудов по материалом. Международной заочной научно-практической конференции 8 октября 2012 г.Липецк, Липецкая областная общественная организация Всероссийского общества изобретателей и рационализаторов, 2012, 252 с. с.103-104.

7. Əhmədova T.V. və dos.Quliyev E.N.“Reklam bazarının marketinq tədqiqatları məsələləri”//2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2013, səh. 95-97.

8. Əhmədova T.V. “Bazar iqtisadiyyatı şəraitində infrastrukturun formalaşması və inkişafı” //2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr

edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2014, səh.50-51.

9.Əhmədova T.V. və dos.Quliyev E.N.“Birja ticarəti və onun inkişaf istiqamətləri”// 2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2014, səh.143-144.

10.Əhmədova T.V.“Müasir münasibətlər sistemində infrastruktur tədqiqinin nəzəri aspektləri” // “Audit” jurnalı, Bakı Biznes Universiteti, 2014, №2, səh.97-102.

11. Əhmədova T.V.“İstehsal vasitələri bazarının logistik idarəedilməsi” // Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi Əsərlər, 2014, №3, səh.14-18.

12.Əhmədova T.V.“Формирование и развитие инфраструктуры товарных рынков” // Экономика Финансы Право, Киев 2014,6/1, с.16-18.

13.Əhmədova T.V. və dos.İmanov T.İ.“İstehsal vasitələrinin məqsəd bazarları və onların seçilməsi xüsusiyyətləri”//Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu. Elmi Əsərlər, 2014, №3, səh.95-99.

14. Əhmədova T.V. və dos.İmanov T.İ “Основные направления снижения транспортных расходов в системе логистических издержек”//International Scientific and Practical Congress. “Science engineering and economic paradigm of modern society”. Information about published articles is regularly provided to Russian Science Citation Index (Contract № 14393), Based on “The genesis of genius” BAZEL (SWITZERLAND) JUNE 25, 2014, c.7-14

15.Əhmədova T.V. “Firmaların rəqabət siyasətinə logistik yanaşma” //2014-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində yerinə yetirilmiş büdcə təyinatlı ETİ-nin yekunlarına həsr edilmiş elmi-praktiki konfransın tezisləri. Bakı 2015.

16.Əhmədova T.V.“Istehsal vasitələri bazarının infrastrukturunun formalaşması xüsusiyyətləri” //“Kreativ sənaye texnologiyalarının tədrisi və tətbiqi” Beynəlxalq Elmi-Praktiki Konfransın materialları. Gəncə 2015, səh.325-326.

17. Əhmədova T.V. və dos.İmanov T.İ. “Системная функция торговой деятельности в рыночной инфраструктуре”// The international scientific periodical journal for economists and jurists. “The genesis of genius” Consilium. Geneva, Switzerland, April 2015 # 1, c.26-30.

18.Əhmədova T.V.“İstehsal vasitələri bazarının infrastrukturunun proqnozlaşdırılması”//“Azərbaycanın milli iqtisadi inkişaf mo-

deli: formalaşması və xüsusiyyətləri" Z.Səmədzadənin 75 llik yubileyinə həsr olunmuş respubika elmi-praktiki konfransı , Bakı 2015.

19.Əhmədova T.V."İstehsal vasitələri bazarının infrastruktur təminatında anbarlardan istifadə xüsusiyyətləri"//Azərbaycan Universitetinin Elmi jurnalı "İpək yolu", 2015, №2, səh. 83-89.

20. Əhmədova T.V. "Müasir iqtisadi şəraitdə istehsal vasitələri bazarının dövlət tənzimlənməsi istiqamətləri" Azərbaycan Universitetinin Elmi jurnalı "İpək yolu", 2016, №1.

**Ахмедова Турана Вахид кызы**

## Особенности формирования и проблемы развития инфраструктуры рынка средств производства

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Актуальность представленной работы заключается в том, что проблема становления и развития адекватной рыночной экономики рынка средств производства охватывает сложный комплекс взаимосвязанных отношений. Их всестороннее изучение и системное использование имеют исключительно важное значение для реализации движущей силы рыночного механизма, более полного использования регулирующей возможности рынка, форм и методов управления рынком.

В первой главе, озаглавленной «Теоретико-методологические основы инфраструктурного обеспечения экономики в системе рыночных отношений» дается научное определение места и роли инфраструктуры как важного элемента рыночной экономики, конкретизируются функции инфраструктурных отраслей, обеспечивающих товародвижение на товарном рынке и разъясняются логистические принципы формирования инфраструктурного комплекса рынка средств производства.

Во второй главе диссертационной работы «Инфраструктурное обеспечение и исследование тенденций развития рынка средств производства Азербайджанской Республики» на основе фактических материалов анализируются основные инфраструктурные элементы рынка средств производства, в том числе, складское хозяйство, транспортное обеспечение рынка средств производства и хозяйственная деятельность оптовых посредников, функционирующих на рассматриваемом рынке.

Третья глава «Организационно-экономический механизм развития инфраструктуры рынка средств производства» посвящена определению экономической эффективности инфраструктурного обеспечения рынка средств производства и выявлению направлений государственного регулирования и тенденций развития инфраструктуры на основе логистического мониторинга.

В заключении исследовательской работы обобщены наиболее существенные результаты исследования и содержатся вытекающие из них основные выводы и практические рекомендации.

**Ahmadova Turana Vahid**

# Formation features and development problems of production means market infrastructure

## SUMMARY

The dissertation work consists of introduction, three chapters, conclusion and the list of used literature. The theme under the headline "Formation features and development problems of production means market infrastructure" is one of the actual problems of modern period. The active development of production means market infrastructure serves the creation of the requiremets of a modern market economic relations. Actually the successful resolution of the problem guaranteesa stable and sustainble development of the economyand create favorable conditions for the effective operation of the production and commercial structures, improves the structure of domestic and foreign economic relations of economic entities.

The place of infrastructure as the main element of market economy has been scientifically determined in the first chapter of the dissertation work, the functions serving to the infrastructural fields in provision of production in commodity market have been defined. The formation of logistical principles of production means market infrastructure have been widely explained.

The second chapter of dissertation work deals with the means of production market infrastructure elements, storage, transportation and the wholesale market mediators. All these issues have been analyzed on the basis of factual information.

The third chapter deals with the methodological approach of the determination of the economic efficiency of market infrastructure provision. The state regulation directions and development trends have been revealed on the basis of logistic monitoring of production means market. The concrete measure systems have been developed for the increasement of production means market infrastructure, the realizing ways have been determined and concrete offers are made at the end of the research work.

**МИНИСТРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ ЭКОНОМИЧЕСКАЯ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ТУРАНА ВАХИД КЫЗЫ АХМЕДОВА**

# ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ И ПРОБЛЕМЫ РАЗВИТИЯ ИНФРАСТРУКТУРЫ РЫНКА СРЕДСТВ ПРОИЗВОДСТВА

5308.01. – «Общая экономика»

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**БАКУ – 2016**

*Kağız formatı 60x84 1/16.*
*Həcmi 1.5 ç.v. Sayı 100.*

---

*" İqtisad Universiteti " Nəşriyyatı*
*AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6.*